# Şərqi Zəngəzurdan Naxçıvana yeni yol

## Zəngilan-İran körpüsü hər iki ölkəyə böyük iqtisadi dividendlər qazandıracaq

**Xəbər verildiyi kimi, oktyabrın 6-da Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" çərçivəsində avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.**



Zəngilan körpüsü iki ölkə ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvana gediş-gəlişin asanlaşdırılmasına xidmət edəcək. 7 gediş-gəliş xətti olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcəyi yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 təşkil edəcək.

Körpünün əhəmiyyəti barədə "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Vüqar Bayramov bildirib ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru nəqliyyat əlaqəsinin yaradılması istiqamətində atılan bu addım regionun inkişafı baxımından vacibdir.

Deputat qeyd edib ki, bu yol region, o cümlədən Azərbaycan üzərindən daşınan yüklərin həcminin artmasına imkan verəcək, ölkəmizin beynəlxalq yükdaşımalardan əldə etdiyi gəlirin həcmini artıracaq. Eyni zamanda bu nəqliyyat yolu həm də "Şərq-Qərb" nəqliyyat dəhlizinə inteqrasiya olunacaq, nəticədə bu, bütövlükdə regionun əməkdaşlıqdan faydalanmasına imkan verəcək. Digər tərəfdən, bu nəqliyyat xətti həm də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən iş adamları üçün də daşımalara yeni bir imkan yaradacaq. Çünki onlar istehsal etdikləri məhsulları daha qısa müddətdə, asan və az xərclə Azərbaycanın əsas hissəsinə nəql edə biləcəklər.

V.Bayramov əlavə edib ki, bu, eyni zamanda, həmin iş adamları üçün ixrac imkanları baxımından da əhəmiyyətlidir: "Bu tərəfdaşlıq İranın Azərbaycanla regionda əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu bir daha təsdiq etdi. Bütün bunlarla yanaşı, bu, həm də bir daha sübut etdi ki, Ermənistan özünütəcrid siyasətini davam etdirir. Əslində, məhz bu siyasət nəticəsində Ermənistan yenidən regional layihələrdən kənarda qaldı".

Deputat deyib ki, bu, həm də Ermənistan hakimiyyətinin müstəqil siyasət yürüdə bilməməsinin göstəricilərindən biridir. Bütün hallarda bu anlaşma Azərbaycanın yeni regional uğuru, Ermənistanın təcrid siyasətinin davam etməsidir. Təbii ki, qazanan məhz əməkdaşlıqda iştirak edən tərəflərdir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 8 oktyabr.- S.4.